# ZAQATALA
## gözəlliklər diyarı

Zaqatala rayonu Azərbaycanın şimal qərb qurtaracağında Böyük Qafqaz sıra dağlarının cənub yamacında yerləşir. Şimaldan Dağıstan respublikası (Rusiya Federasiyası), cənubdan Gürcüstan respublikası ilə həmsərhəddir.

Zaqatala rayonunun iqlimi mülayim isti və rütubətlidir. Subtropik iqlim özünü göstərir. Zaqatala rayonunun ərazisi 1348 kv km-dir, əhalisinin sayı 111-min nəfərdir. 20-yə yaxın millət və xalqın nümayəndəsi yaşayır. Təbiətinin belə zənginliyinə görə 1930-cu ildə Zaqatala Dövlət Təbiət Qoruğu yaradılmışdır. Qoruğun ərazisi 25,2 min hektardır.

Zaqatala rayonu hələ eramızdan əvvəl III minillikdə (daş dövrü) insanların diqqətini cəlb etmiş, daimi olaraq yaşayış məntəqəsinə çevrilmişdir. Rayonumuzun ərazisində aparılmış arxeoloji qazıntılar nəticəsində əldə olunmuş qədim əşyalar bunu sübut edir. Eramızdan əvvəllər və sonrakı dövrlərdə rayonumuzun ərazisində tikilmiş qalalar, müdafiə sədləri, türbələr, məbədlər, evlər, sənətkarlıq emalatxanaları, məscidlər və minarələr vardır. Yuxarı Çardaxlar kəndi ərazisində Pəri qala IV-VI əsrlərdə, Car, Mazıx kəndlərində bürclər X-XI əsrlərdə tikildiyi müəyyən edilmişdir. Mamrıx və Paşan kəndində Alban evləri vardır. Tala kəndində məscid XX əsrin əvvəllərində tikilmişdir.

Zaqatala qalası 1804-cü ildə tikilməyə başlanmış, 1830-cu ildə tikintisi başa çatmışdır. Qalanın sahəsi 9 hektardan ibarətdir. Qala Çar Rusiyası tərəfindən hərbi məqsədlə tikilmişdir. Qalanın daxilində 30-a yaxın müxtəlif məqsədlər üçün binalar vardır. Qalanın 3 giriş qapısı vardır. Qalanın daxilində Çar Rusiyasının ordusu yerləşdirilmişdir. Bu ordu yerli əhaliyə müxtəlif növ vergilər təyin edirdi. Bu vergiləri ödəyə bilməyən yerli əhali 1830, 1863, 1864-cü illərdə üsyanlar qaldırmış və qala bir neçə yerdən dağıdılmışdır. 1905-ci ildə Rusiyada Patyomkin gəmisinin matrosları Çar Rusiyası zülmünə qarşı üsyan qaldırdığına görə bu qalaya sürgün olunmuşdular. Qala tarixi abidə kimi vaxtaşırı bərpa işləri aparılmaqla qorunub saxlanılır. Hal-hazırda Mədəniyyət və Turizm Nazirliyinin xətti ilə qalada əsaslı təmir işləri aparılır.






Zaqatala rayonu ərazisində 40-a yaxın məscid vardır. Onlardan XVIII əsrdə tikilmiş Çar, Mamrıx kənd məscidləri, XIX-XX əsrlərdə tikilmiş altıbucaqlı Yengiyan kənd məscidi və minarəsi, Əliabad kəndindəki minarə və məscidi, böyük Tala məcidi, Muğanlı kənd məscidləri nadir forma və memarlıq üslubunda inşa edilmişdir. Bu məscidlər dini məqsədlə tikilməklə yanaşı milli orijinallığı özündə əks etdirir. Müasir dövrdə tikilmiş şəhər məscidi (1998-2002) dindarların istifadəsinə verilmişdir. Osmanlı türk memarlığı əsasında inşa edilən məscid binasının baş ustası Türkiyənin Giresun bölgəsindən olan Adem Elmaz usta olmuşdur.

Azərbaycan müstəqillik əldə etdikdən sonra rayonumuzda yeni obyektlər tikilərək əhalinin istifadəsinə verilmişdir. Zaqatala şəhərində tikilmiş Olimpia idman kompleksi, müxtəlif banklar, fəvvarələr, əsaslı təmir edilmiş məktəblər, klublar, körpülər, park və meydanlar, günün tələblərinə cavab verən prospekt və küçələr vardır. Yaxın vaxtlarda istifadəyə veriləcək obyektlərə misal olaraq Beynəlxalq miqyaslı Aeroportu, Sağlamlıq Diaqnostika mərkəzini, Heydər Əliyev adına muzeyi, Zərifə Əliyeva adına parkı və s. göstərmək olar.

Rayonumuzda 66 ümumtəhsil məktəbi, 1 texniki peşə məktəbi, 1 idarəetmə və texnologiya kolleci, 2 institut fəaliyyət göstərir. Məktəbəqədər uşaq tərbiyə müəssisələrinin sayı 39-dur. Rayonda fəaliyyət göstərən ali məktəb, Azərbaycan müəllimlər institutunun Zaqatala filialıdır. Zaqatala şəhərində 1998-ci ildə Bakı İslam Universitetinin filialı yaradılmışdır. Rayonun təhsil müəssisələrinin yetirmələri içərisində məşhur elm və mədəniyyət xadimləri, milli qəhrəmanlar vardı: Ərəblinski Balakişibəy Əlibəy oğlu-general-leytenant (1828-1902), Kazımov Səlahəddin İsa oğlu-Sovet İttifaqı Qəhrəmanı, general-mayor (1920-1978), Hasilova Xalidə Məmməd qızı-yazıçı (1937-1996), Atayev Cavanşir İsmayıl oğlu-akademik (1931-2003). Sosialist Əməyi Qəhrəmanları: Nəzirova Mina Bəşir qızı (1914-1984), Qazıyeva Sevil Həmzət qızı (1940-1963), Musakova Mesed Abdulsəməd qızı (1920-1972), Həsənova Zalxay Mahmud qızı (1941), Mahmudov







*Xalqımızın ən qədim zamanlardan müasir dövrədək tarixini və mədəniyyətinin inkişaf yolunu əks etdirən Azərbaycan muzeyləri ölkəmizdə zəngin mədəni irsin qorunması və təbliğ olunması işində mühüm rol oynayır. Azərbaycanın ictimai-siyasi, mədəni fikir həyatında sürətlə cərəyan edən proseslər, öz növbəsində muzey işinin təşkilinə təkan vermiş və ölkəmizdə müasir tipli muzeylərin yaradılmasına başlanmışdır. Son illər sürətli yüksəliş dövrü yaşayan ölkəmizdə milli mədəni sərvətlərin qorunması və gələcək nəsillərə çatdırılması işinə lazımi diqqət göstərilir.*

**İlham Əliyev**

Əhməd Abdurauf oğlu (1926-2002), Kərimova Gülbənövşə Qurban qızı (1918-1983). Azərbaycan Respublikasının Milli Qəhrəmanları: Əmirov Faiq İsbəndiyar oğlu (1975-1995), Məmmədov Natiq Bəşir oğlu (1975-1994).

Hal-hazırda Zaqatala rayonunda 27 mədəniyyət evi, 36 klub, 80 kitabxana, 3 xalq teatrı, 1 incəsənət məktəbi, 1 mədəniyyət və istirahət parkı, 1 əyləncə mərkəzi və 2 muzey əhaliyə xidmət göstərir. Zaqatala Tarix-Diyarşünaslıq Muzeyi 1967-ci ildə yaradılmışdır. Muzeydə müxtəlif dövrlərdə sənətkarlar tərəfindən düzəldilmiş məişət əşyaları toplanmışdır. Bu əşyalar sırasına dulusçuluq sənəti nümunələri, ağac və müxtəlif materiallardan hazırlanmış məişət və kənd təsərrüfatı alətləri, toxuculuq məmulatları, metaldan hazırlanmış bəzək əşyaları, müxtəlif dövrlərə aid geyim nümunələri, silahlar və hədiyyələr daxildir.

Dulusçuluq sənəti Azərbaycanda geniş yayılmış qədim sənət növüdür. Zaqatala rayon ərazisində eramızdan əvvəl I minillikdə yaranmışdır. Muzeydə ilk nümunələrlə yanaşı orta əsrlərdə və müasir dövrdə istehsal olunmuş: bardaqlar, vazlar, kasalar, nehrələr, müxtəlif ölçülü küplər və suvenirlər vardır. Dulusçuluq məmulatları məişətimizdə geniş istifadə olunmuş əşyalardandır.

Zaqatala rayonunun ərazisində evləri işıqlandırmaq üçün VIII-XIII əsrlərdə istifadə olunan tunc lampalar muzeydə vardır. Lakin o, dövrdən də əvvəllər ibtidai üsulla işlədilən çıraq nümunələri də muzeyimizdə nümayiş etdirilir.

Rayonun ərazisində 20-yə yaxın millətlər yaşayır. Onların özünə məxsus geyimləri vardır. Orta əsrlərdən başlayaraq indiyədək olan milli geyimlərin 100-ə yaxın nümunələri muzeyimizdə nümayiş etdirilir. Tamaşaçıların diqqətini ən çox qədim geyimlərdən: koftalar, yupkalar, məzərlər, finkalar, örpəklər, ləçəklər cəlb edir.

Muzeydə nümayiş etdirilən silah növləri bizə əsas verir deyək ki, bölgəmizdə müxtəlif məqsədlər üçün silahlardan istifadə etmişlər. Oxatan, nizə, təbərzin, xəncər, dayandoldurum, tüfənglər, tapancalar, avtomat maqazini və gülləlləri muzeydə nümayiş etdirilir.

Bəzək əşyaları qədim zamanlardan istər kişilər üçün, istərsə də qadınlar üçün əhəmiyyətli olmuşdur. Orta əsrlərdən bəri bölgəmizdə istifadə olunmuş bəzək əşyalarından: üzüklər, bilərziklər, tufat kəmərləri, sinəbəndlər, boyunbağılar, müxtəlif metallardan və materiallardan hazırlanmış əşyalar vardır.

Muzeyə gələn tamaşaçılar arasında xarici vətəndaşlar da olmuşdur. Rusiyadan, Koreyadan, Vyetnamdan, Ukraynadan, Qazaxıstandan, Özbəkistandan və qardaş Türkiyədən gəlmiş qonaqlar öz ölkələrinin müxtəlif əşyalarını muzeyə hədiyyə etmişlər.

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyini mədəniyyət ocaqlarının, abidələrinin, ümumiyyətlə zəngin mədəni irsin qorunmasında və gələcək nəsillərə çatdırılmasında böyük işlər görür. Zaqatala rayonunda milli ənənələrimizi təbliğ etməkdə və yaşatmaqda Mədəniyyət və Turizm Nazirliyinin əməyi az olmamışdır.

**Şüay XƏLİLOV,**
**rayon tarix-diyarşünaslıq muzeyinin direktoru**

